# "Poçt Ünvanları" mobil tətbiqi üçün

## TƏLİMAT

Google map üzərindən çalışdığına görə bu mobil tətbiqin istifadəsi zamanı mobil qurğunuzda GPS naviqasiya sisteminin açıq olmasına diqqət edin.

"Poçt Ünvanları" mobil tətbiqi üzrə dil seçimi etmək, istifadəçi təlimatı və mobil tətbiq barədə qısa məlumatla tanış olmaq üçün menyu işarəsini seçin ***(şəkil 1).***




şəkil 1

Mobil tətbiqdən istifadə Azərbaycan və İngilis dillərində mümkündür ***(şəkil 2)***.




şəkil 2

**Haqqında** bölməsində mobil tətbiq barədə qısa məlumat əldə edə, həmçinin, rəy və təkliflərinizi qeyd olunan elektron poçt ünvanı və telefon nömrəsinə ünvanlaya bilərsiniz ***(şəkil 3)***.




şəkil 3

Yerləşdiyiniz məkanın xəritə üzərində əks olunması üçün **lokasiya** funksiyasından istifadə etmək kifayətdir ***(şəkil 4)***.




şəkil 4

Mobil tətbiqin iki əsas **"Xəritə"** və **"Axtarış"** bölmələrinə eyni adlı düymələri seçməklə keçid etmək olar.

**"Xəritə"** bölməsi vasitəsilə,



şəkil 5

Azərbaycan Respublikasının xəritəsi üzərində poçt şöbələrinin regionlar üzrə,

- **yeri;**
- **yerləşdiyiniz məkana yaxın poçt şöbələri;**
- **yerləşdiyiniz mövqedən poçt şöbəsinə doğru hərəkət istiqaməti;**
- **telefon nömrəsi;**
- **iş rejimi;**

barədə məlumat əldə etmək olar ***(şəkil 5)***.

Axtardığınız poçt şöbəsini tapmaq üçün,
**"Axtarış"** bölməsini seçin ***(şəkil 6)***.




şəkil 6

Poçt şöbəsinin indeksini bilirsinizsə **"Poçt indeksinə görə"** bölməsində tapmaq istədiyiniz regionu seçim edərək müvafiq indeksi seçin ***(şəkil 7)***.




şəkil 7

**"Küçə adına görə"** axtarış etmək üçün axtarış xanasına müvafiq ünvanı daxil etmək lazımdır ***(şəkil 8)***.



şəkil 8

İndeks və ya küçə adına görə aparılmış axtarışın nəticəsi xəritə üzərində mavi işarə ilə əks olunacaq. Həmçinin, **şöbənin adı, ünvanı, telefon nömrəsi və şöbənin iş rejimi** göstəriləcək ***(şəkil 9)***.




şəkil 9

Əks olunan mövqe üzərinə bir dəfə toxunmaqla **mətni kopyala**, **zəng et**, **marşrutu göstər** və ya **Google maps-də göstər** funksiyalarından istifadə etmək olar ***(şəkil 10)***.



şəkil 10

Poçt şöbəsinə olan marşrutu öyrənmək üçün **"Marşrutu göstər"** funksiyasını seçin ***(şəkil 10)***. Yerləşdiyiniz məkandan seçdiyiniz poçt məntəqəsinə olan nəqliyyat marşrutu ekranda əks olunacaq. ***(şəkil 11)***.



şəkil 11

**"Google Maps-də göstər"** funksiyasını seçdikdə yerləşdiyiniz məkandan getmək istədiyiniz poçt məntəqəsinə olan məsafə, həmin məsafəni qət etmək üçün vasitələr

- ***şəxsi nəqliyyat marşrutu;***
- ***ictimai nəqliyyat marşrutu;***
- ***piyada marşrutu***

və bu vasitələrə uyğun olaraq sərf ediləcək vaxt göstərilir **(*şəkil 12*).**




şəkil 12

**Şəxsi nəqliyyat marşrutu** ***(şəkil 13)***




şəkil 13

**İctimai nəqliyyat marşrutu *(şəkil 14)***



şəkil 14

**Piyada marşrutu *(şəkil 15)***




şəkil 15

Xəritənin miqyasını kiçiltməklə miqyas üzrə qruplaşmış poçt şöbələrinin sayını da öyrənmək mümkündür ***(şəkil 16)***.



Poçt Ünvanları
XƏRITƏ
AXTARIŞ
50+
20+
20+
20+
50+
50+
20+
100+
Sumgay
6
Hövsa
erbaijan
50+
50+
10+
Shirvan
50+
E002
20+
Saly
20+
Pärsābād
پارس آباد
50+
50+
Lankaran
20+
Google


şəkil 16